# Uğur olsun, "Hirkan!"



**Azərbaycanın musiqi mədəniyyəti qədim ənənələrə malik olub, xalqımızın tarixi ilə əlaqəli şəkildə inkişaf etmişdir.**

Vaxt axarında müəyyən dəyişikliklərə məruz qalsa da musiqimiz öz milli orijinallığını qoruyub saxlaya bilmişdir. Bu xüsusiyyət musiqi folkloru nümunələrində özünü daha qabarıq şəkildə göstərir.

Lənkəran öz füsunkar təbiəti, gözəl ab-havası, adət-ənənələri kimi, mədəniyyət abidələrini, milli sərvət olan folklor nümunələrini də nəsildən-nəsilə çatdıraraq qoruyub saxlamışdır.

Xalqımızın bədii təfəkkürü, dünyagörüşü ilə bağlı musiqi folklorunun müxtəlif janrları özünəməxsus rəngarəngliyi ilə bütün dövrlərdə diqqət mərkəzində olmuşdur.

Lənkəran şəhər 3 saylı Mədəniyyət evində fəaliyyət göstərən "Hirkan" folklor kollektivi milli psixologiyamızın formalaşmasında mühüm rol oynayan mahnı və folklor nümunələrini bu gün də axtarıb tapır, onlara yeni həyat verərək unudulmaq təhlükəsindən qoruyur.

"Hirkan" folklor kollektivi 1991-ci ildən fəaliyyət göstərir. Kollektivin rəhbəri kimi bu sətirlərin müəllifi 1979-cu ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təyinatı ilə Lənkəran Şəhər Mədəniyyət Şöbəsinə göndərilmişdir. O vaxtdan 30 il keçməsinə baxmayaraq ömrünü mədəniyyət sahəsinə, musiqiyə bağlamışdır. Qaçay Vəliyev xanəndə kimi el şənliklərində tez-tez olduğu üçün folklor musiqi nümunələrini toplayır və unudulmaqda olan mahnıları kollektivin üzvləri ilə hazırlayıb həyata qaytarır.

"Hirkan" folklor kollektivinin 12 nəfər üzvü var. Kollektiv dəfələrlə hərbi hissələrdə əsgərlər qarşısında maraqlı proqramla çıxış edib. Rayonda keçirilən bütün tədbirlərdə fəallıq göstərib. 2009-cu il Novruz şənliyindəki çıxışı, Respublika televiziya kanallarının AzTV, Lider, Space, Xəzər xəbərlər proqramında çıxışları dediklərimizə sübutdur.

Düz 18 ildir ki, "Hirkan" kollektivi pərəstişkarlarını öz gözəl mahnıları ilə sevindirir. Kollektivin repertuarına "Səməni", "Halay", "Xonça", "Ay lo-lo", "Nehrə", "Çay", "Dağlarda çən olaydım" Azərbaycan və talış xalq mahnıları daxildir.

Kollektivin üzvlərindən Qaçay, Gülşən, Bahar, Gülçöhrə, Məşədi Elman, Fəxrəddin, Hüseyn Müqabil, Yaşar, Rail, Mais, Tahir və onlarla oğlan və qızlarımız bundan sonra da "Hirkan"ın inkişafı üçün səy və bacarıqlarını əsirgəməyəcəklər.

Kollektivin inkişafına həmişə qayğı və diqqət bəsləyən Lənkəran Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri Vasif Fərzullayev "Hirkan" folklor kollektivi ilə fəxr edə bilər.

● B.ZAYRALIQIZI